*Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2015-ci il 15 may tarixli 9/79 saylı Qərarı ilə təsdiq edilmiş və 2016-cı il 13 may tarixli 5/18 saylı Qərarı ilə dəyişiklik edilmişdir.*

# Siyasi partiyalar tərəfindən təqdim edilmiş illik maliyyə hesabatlarının qəbul olunması və nəzərdən keçirilərək ictimailəşdirilməsi qaydalarına dair

# T Ə L İ M A T

Bu Təlimat Azərbaycan Respublikası Seçki Məcəlləsinə (bundan sonra – Seçki Məcəlləsi) və "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən hazırlanmış "Mühasibat uçotu haqqında", "Daxili audit haqqında" və "Auditor xidməti haqqında" Azərbaycan Respublikası Qanunlarına, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 16.11.2012-ci il tarixli, 263 saylı qərarı ilə təsdiq edilmiş "Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası"na, 30.08.2013-cü il tarixli, 238 saylı qərarı ilə təsdiq edilmiş "Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları"na və digər qanunvericilik aktlarına uyğun olaraq siyasi partiyalardan daxil olmuş illik maliyyə hesabatlarının (bundan sonra – hesabat) qəbul edilməsi, araşdırılması və ictimailəşdirilməsi ilə bağlı münasibətləri nizama salır.

## 1. Siyasi partiyalar tərəfindən təqdim edilmiş hesabatlara dair tələblər, onların qəbul edilmə qaydası və müddətlər

1.1. Siyasi partiyalar nizamnamələrində nəzərdə tutulmuş fəaliyyətləri ilə əlaqədar "Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq maliyyə hesabatları hazırlayıb auditor rəyi ilə birlikdə hər il aprel ayının 1-dən gec olmayaraq Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına (bundan sonra – Mərkəzi Seçki Komissiyası) təqdim edirlər.

1.2. Hesabatlar Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Siyasi partiyalarda sadələşdirilmiş mühasibat uçotunun aparılması Qaydaları"na və "Siyasi partiyaların maliyyə hesabatlarının forması, məzmunu və təqdim edilmə Qaydası"na uyğun olaraq tərtib edilir.

1.3. Hesabatlar kağız daşıyıcıda və ya hər iki formada (kağız və elektron) buna səlahiyyəti olan şəxslər tərəfindən qanunvericiliklə müəyyən olunmuş qaydada təsdiq edilməklə göndərilir və ya təqdim edilir.

1.4. Hesabata əlavə edilmiş auditor rəyinin surəti onu vermiş subyekt tərəfindən həmin rəy verildikdən dərhal sonra Mərkəzi Seçki Komissiyasına göndərilir.

1.5. Hesabatların elektron formada qəbul edilməsini və ümumiləşdirilərək elektron formada ictimailəşdirilməsini təmin etmək məqsədilə xüsusi yaradılmış vahid elektron bazadan istifadə edilir.

1.6. Kağız daşıyıcıda təqdim edilmiş hesabatlar elektron formaya keçirilərək elektron bazaya daxil edilir.

1.7. Təqdimedilmə formasından asılı olmayaraq qəbul edilmiş hesabatlar elektron və kağız daşıyıcısı formasına salınaraq Mərkəzi Seçki Komissiyasının arxivində 5 il müddətində saxlanılır.

## 2. Hesabatların nəzərdən keçirilməsi, ümumiləşdirilməsi və ictimailəşdirilməsi qaydaları

2.1. Daxil olmuş sənədlərin nəzərdən keçirilməsi, ümumiləşdirilməsi və ictimailəşdirilməsi qanunun aliliyi, obyektivlik, qərəzsizlik, neytrallıq, vahid yanaşma, eyni qaydalar tətbiq etməklə tam araşdırma və ayrı-seçkiliyin yolverilməzliyi prinsiplərinə əsaslanır və siyasi partiyaların maliyyə fəaliyyətinin qanunvericiliyin tələblərinə uyğun qurulmasına və aşkarlığın təmin edilməsinə yardım etmək məqsədi daşıyır.

2.2. Maliyyə hesabatlarının qəbul edilməsi, nəzərdən keçirilməsi, ümumiləşdirilməsi Mərkəzi Seçki Komissiyası Katibliyinin strukturunda fəaliyyət göstərən qurum (maliyyə, iqtisadi və faktiki təhlillər aparmaq qabiliyyəti olan, yüksək ixtisas və təcrübəyə malik mütəxəssislərdən ibarət) tərəfindən, zərurət olarsa Komissiyanın nəzdindəki Nəzarət-təftiş xidmətinin iştirakı ilə həyata keçirilir.

2.3. Qeyd edilən proses Mərkəzi Seçki Komissiyasının ümumi nəzarəti altında həyata keçirilir və bu məqsədlə Təlimatın 2.2-ci bəndində göstərilmiş qurumlar arasında qarşılıqlı səmərəli fəaliyyət təmin edilir.

2.3.1. Hesabatlar Mərkəzi Seçki Komissiyasına daxil olduqdan sonra 1 iş günü müddətində elektron bazada yerləşdirilməklə ictimailəşdirilir.

2.4. Hesabatlar nəzərdən keçirilərkən natamamlıq, qeyri-düzgünlük, açıq ziddiyətlər və digər pozuntular aşkar edildikdə, onların siyasi partiyaların real maliyyə fəaliyyətinə uyğunluğunun təmin edilməsi məqsədilə, siyasi partiyalardan və digər aidiyyəti subyektlərdən buna dair əlavə məlumat və sənədlər tələb oluna bilər.

2.5. Hər bir maliyyə hesabatı barədə yoxlamanı həyata keçirən qurum tərəfindən rəy verilir, qanunvericiliyin tələblərinə uyğunlaşdırma ilə əlaqədar mümkün tədbirlər görüldükdən sonra siyasi partiyanın real maliyyə fəaliyyətini tam görməyə imkan verən məlumatlar da bazaya əlavə edilir. Bu zaman hesabatların verilməsi üçün müəyyən olunmuş müddətə əməl olunub-olunmamasına, hesabatların tamlığına və keyfiyyətinə, habelə qüsurlara yol vermiş siyasi partiyanın həmin qüsurlara olan münasibəti və qüsurların aradan qaldırılması prosesindəki roluna dair məlumatlar da göstərilir (bu Təlimata 1 saylı əlavə). Eyni zamanda siyasi partiyaların maliyyə hesabatlarının nəzərdən keçirilməsinin ümumi vəziyyətinə dair məlumatlar da cədvəl şəklində ictimailəşdirilir (bu Təlimata 2 saylı əlavə).

2.6. Təqdim edilməyən və qanunvericiliyin tələblərinə cavab verməyən hesabatlar, habelə hesabatların ümumi vəziyyəti və ümumiləşdirmənin nəticələri Mərkəzi Seçki Komissiyasının iclasında müzakirə edilərək müvafiq tədbirlər görülür.

## 3. Hesabatların nəzərdən keçirilməsi prosesində yoxlayıcı qurumun hüquq və vəzifələri:

**3.1. hüquqlar:**

3.1.1. qanunvericiliklə müəyyən olunmuş vaxtda təqdim edilməyən hesabatları tələb etmək;

3.1.2. hesabat nəzərdən keçirilərkən, qanunvericiliyin tələblərinin pozulması halları müəyyən edildikdə siyasi partiyadan və digər aidiyyəti subyektlərdən əlavə məlumat və sənədlər tələb etmək;

3.1.3. auditor tərəfindən Mərkəzi Seçki Komissiyasına təqdim edilməmiş rəyin surətini, habelə təqdim edilmiş rəylə əlaqədar suallar yarandıqda əlavə məlumatlar tələb etmək;

**3.2. vəzifələr:**

3.2.1. hesabatların qanunvericilikdə nəzərdə tutulmuş müddətdə və tələblərə uyğun təqdim olunmasına nəzarət etmək;

3.2.2. təqdim olunmuş hesabatları qəbul edərək qanunvericilikdə müəyyən olunmuş qaydada baxıb rəy hazırlamaq;

3.2.3. hesabatlar qanunvericilikdə nəzərdə tutulmuş müddətdə təqdim olunmadıqda, buna dair müvafiq arayış hazırlayaraq iclasda müzakirə edilməsi üçün Katibliyin Ümumi şöbəsi vasitəsilə Mərkəzi Seçki Komissiyasının rəhbərliyinə çatdırmaq;

3.2.4. təqdim edilmiş sənədlərin araşdırılmasına dair nəticələr Mərkəzi Seçki Komissiyasını qane etmədikdə, Komissiyanın göstərişinə əməl etməklə araşdırmanı yenidən aparmaq;

3.2.5. təqdim edilmiş hesabatlar əsasında siyasi partiya tərəfindən qanunvericiliyin tələblərinə əməl olunmaması müəyyən edildikdə, müvafiq qüsurlara dair məlumatlar hazırlamaq, iclasda müzakirə edilməsi üçün Katibliyin Ümumi şöbəsi vasitəsilə Mərkəzi Seçki Komissiyasının rəhbərliyinə çatdırmaq;

3.2.6. hesabatların qəbul edilib-edilməməsi ilə bağlı müvafiq subyektləri məlumatlandırmaq;

3.2.7. hesabatları müvafiq rəylə birlikdə elektron bazada yerləşdirməklə ictimailəşdirmək;

3.2.8. Mərkəzi Seçki Komissiyasında vaxtaşırı müzakirə olunmaq üçün hesabatların təqdimedilmə vəziyyətinə dair arayışlar hazırlamaq;

3.2.9. Mərkəzi Seçki Komissiyası qarşısında hesabat vermək.

## 4. Qanunvericiliyin tələblərinin pozulmasının yolverilməzliyi, baş vermiş pozuntuların və qüsurların müəyyən edilərək aradan qaldırılması və məsuliyyət

4.1. Hesabatların ümumiyyətlə təqdim edilməməsi, müddətin ötürülməsi ilə təqdim edilməsi, natamam təqdim edilməsi, habelə qanunvericilikdə müəyyən olunmuş digər tələblərin pozulması ilə təqdim edilməsi yolverilməzdir.

4.2. Qanunvericiliyin tələblərinin pozulması müxtəlif üsullarla və müxtəlif mənbələrdən daxil olmuş məlumatlar əsasında aparılan araşdırma nəticəsində müəyyən edilə bilər (auditor rəyinə əsasən, hesabatlar nəzərdən keçirilərkən, qeydə alınmış istənilən siyasi partiya və digər seçki subyektləri tərəfindən göndərilmiş şikayət və müraciətlərə əsasən, vətəndaş cəmiyyəti təmsilçilərinin, dövlət orqanları, media, bələdiyyə və mülkiyyət formasından və fəaliyyət istiqamətindən asılı olmayaraq istənilən qurum və subyektlər tərəfindən təqdim edilən məlumatlar, internet mənbələrindən əldə edilmiş məlumatlar və s. əsasında).

4.3. Siyasi partiya özünün maliyyə fəaliyyəti və maliyyə hesabatına dair Azərbaycan Respublikası qanunlarının və digər qanunvericilik aktlarının tələblərini pozduqda və həmin pozuntuların aradan qaldırılması mümkün olduqda, Mərkəzi Seçki Komissiyası müvafiq siyasi partiyaya həmin qüsurların 5 gün ərzində aradan qaldırılması təklifi ilə şifahi və ya yazılı müraciət edir. Bu zaman qəsdən törədilməmiş az əhəmiyyətli pozuntuların baş verməsi səbəblərinin üzrlü hesab edilməsinin mümkünlüyü nəzərə alına bilər.

4.4. Mərkəzi Seçki Komissiyası bu Təlimatın 1.2-ci bəndində nəzərdə tutulmuş müddətdə hesabatları auditor rəyi ilə birlikdə təqdim etməyən siyasi partiyalar barədə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə məlumat verir.

4.5. Hesabatlarda yol verilmiş qüsur və çatışmazlıqların aradan qaldırılması üçün yaradılmış imkanlardan istifadə etməyən siyasi partiyalar barədə müvafiq tədbirlər görülməsi məqsədilə aidiyyəti səlahiyyətli qurumlara müraciət edilir.

*Təlimata 1 saylı əlavə*

**Siyasi partiya tərəfindən təqdim edilmiş 20___ il üzrə illik maliyyə hesabatının nəzərdən keçirilməsi vəziyyətinə dair məlumat**

*(hesabat __ay 20__ ildən __ay 20__ ilədək dövrü əhatə edir)*

**Siyasi partiyanın adı:**
**Hüquqi ünvanı:**
**Əhatə edilən hesabat dövrü:**
**Hesabatın təqdim edilməsi üçün müəyyən edilmiş son müddət:**
**Hesabat vaxtında təqdim edilmişdir:**
**Hesabatın təqdim edilmə müddəti pozulmuşdur:** **(____) gün**
**Pozuntular aşkar edilmişdir:**
**Sanksiya tətbiq olunmuşdur:**
**Sanksiya tətbiq olunmamışdır:**

| | | | | |
|---|---|---|---|---|
| ***Aparılmış araşdırmaların nəticələrinə dair məlumat*** | | | | |
| ***Siyasi partiyalar və mühasibat strukturları***<br>***Maliyyə vəziyyəti haqqında hesabat***<br>*(1 N-li formaya uyğun)* | | | | |
| **Mümkün pozuntular** | **Nəzərdən keçirilmiş bəndlər** | **Pozuntular aşkar olunmamış bəndlər** | **Pozuntular aşkar olunmuş bəndlər** | |
| | | | Məlumatlar təqdim olunmamışdır | Məlumatlar yanlış təqdim olunmuşdur |
| **Aktivlər** | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Qeyri-maddi aktivlər | | | | |
| Torpaq, tikili və avadanlıq | | | | |
| Daşınmaz əmlaka investisiyalar | | | | |
| Uzunmüddətli debitor borcları | | | | |
| Sair uzunmüddətli aktivlər | | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | | | |
| **Qısamüddətli aktivlər** | | | | |
| Ehtiyatlar | | | | |
| Qısamüddətli debitor borclar | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | | | |
| Sair qısamüddətli aktivlər | | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | | | |
| **Cəmi aktivlər** | | | | |
| **Xalis aktivlər (kapital) və öhdəliklər** | | | | |
| **Xalis aktivlər (kapital)** | | | | |
| Ehtiyat fondu | | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | | |
| **Cəmi xalis aktivlər (kapital)** | | | | |
| **Uzunmüddətli öhdəliklər** | | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| Uzunmüddətli kreditor borcları | | | | |
| Sair uzunmüddətli öhdəliklər | | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | | |
| **Qısamüddətli öhdəliklər** | | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | | |

| | | | | |
|---|---|---|---|---|
| Qısamüddətli kreditor borcları | | | | |
| Sair qısamüddətli öhdəliklər | | | | |
| **Cəmi qısamüddətli öhdəliklər** | | | | |
| **Cəmi öhdəliklər** | | | | |
| **Cəmi xalis aktivlər (kapital) və öhdəliklər** | | | | |

***Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat***
*(2 №-li formaya uyğun)*

| **Mümkün pozuntular** | **Nəzərdən keçirilmiş bəndlər** | **Pozuntular aşkar olunmamış bəndlər** | **Pozuntular aşkar olunmuş bəndlər** | |
|---|---|---|---|---|
| | | | Məlumatlar təqdim olunmamışdır | Məlumatlar yanlış təqdim olunmuşdur |
| **Gəlirlər**<br>o cümlədən: | | | | |
| üzvlük haqları | | | | |
| əmlakdan götürülən gəlir | | | | |
| tədbirlərdən, mətbu nəşrlərin və məqalələrin yayılmasından, gəlirlə bağlı olan buna bənzər başqa fəaliyyətdən götürülən gəlir | | | | |
| ianələr şəklində gəlir | | | | |
| seçki kampaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait | | | | |
| aşağı təşkilatların ödəncləri | | | | |
| dövlət büdcəsindən ayrılan vəsait | | | | |
| borcun və ya kreditin alınmasından əldə edilmiş məbləğ | | | | |

| | | | | |
|---|---|---|---|---|
| hüquq varisliyi və ya vərəsəlik yolu ilə əldə edilmiş əmlak | | | | |
| digər gəlirlər | | | | |
| **Xərclər,**<br>o cümlədən: | | | | |
| cari işlərə sərf olunan vəsait | | | | |
| siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər | | | | |
| ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər | | | | |
| aşağı təşkilatlara ödənclər | | | | |
| kreditlər üzrə faizlər | | | | |
| fərdi xərclər | | | | |
| sair xərclər | | | | |
| ümumi mənfəət (zərər) | | | | |

| ***Əhəmiyyətli uçot siyasəti və izahlı qeydlərin məzmunu*** | | | | |
|---|---|---|---|---|
| **Mümkün pozuntular** | **Nəzərdən keçirilmiş bəndlər** | **Pozuntular aşkar olunmamış bəndlər** | **Pozuntular aşkar olunmuş bəndlər** | |
| | | | Məlumatlar təqdim olunmamışdır | Məlumatlar yanlış təqdim olunmuşdur |
| siyasi partiyaların maliyyə hesabatlarının tərtibi ilə bağlı əhəmiyyətli uçot siyasətlərinin açıqlanmasını təmin edən məlumatlar; | | | | |
| maliyyə vəziyyəti haqqında hesabatda göstərilən bütün maddələrin açıqlanmasını təmin edən məlumatlar; | | | | |
| maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda göstərilən bütün maddələrin (o cümlədən, üzvlük haqqı | | | | |

| | | | | |
|---|---|---|---|---|
| ödəyən siyasi partiya üzvlərinin sayı və ianəni vermiş şəxslər barədə məlumatlar) açıqlanmasını təmin edən məlumatlar; | | | | |
| ianə vermiş şəxsin soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və ianənin məbləği, əhəmiyyətli uçot siyasəti və izahlı qeydlərdə əks etdirilməlidir. | | | | |

**Siyasi partiyaların yol verilmiş pozuntulara və həmin pozuntuların aradan qaldırılmasına münasibəti**

| Pozuntuların ehtiyatsızlıqdan baş verməsini bildirib aradan qaldırılması üçün səmərəli əməkdaşlıq edən siyasi partiyalar | Yol verilmiş pozuntularla əlaqədar xəbərdarlıq edilməsinə baxmayaraq qüsurların aradan qaldırılması üçün əməkdaşlıqdan yayınan və imtina edən siyasi partiyalar |
|---|---|
| | |

**MSK Katibliyinin** Maliyyə şöbəsinin
siyasi partiyaların hesabatları üzrə
iş sektorunun müdiri:

Bakı şəhəri, “___”__________ 20___ il

*Təlimata 2 saylı əlavə*

**Siyasi partiyaların 20 ___ il üzrə illik maliyyə hesabatlarının təqdim olunması və nəzərdən keçirilməsi vəziyyətinə dair ümumi**

**m ə l u m a t**

<table>
<tr><th>Hesabat təqdim etməli olan<br>siyasi partiyalar</th><th>Hesabatları<br>təqdim etmiş<br>siyasi partiyalar</th><th colspan="2">Nəzərdən keçirilmiş hesabatlar</th></tr>
<tr><td></td><td></td><td colspan="2"></td></tr>
<tr><td colspan="4">Hesabatların təqdim edilməsi müddətinə əməl olunması vəziyyəti</td></tr>
<tr><td colspan="2">Qanunvericiliyin tələblərinə əməl olunmaqla 2015-ci il aprelin 1-dək<br>təqdim olunmuş hesabatlar</td><td colspan="2">Qanunvericiliklə müəyyən olunmuş müddətə dair tələblərinin<br>pozulması ilə təqdim olunmuş hesabatlar</td></tr>
<tr><td colspan="2"></td><td colspan="2"></td></tr>
<tr><td colspan="4">Təqdim edilmiş hesabatların mahiyyətcə qanunvericiliyin tələblərinə uyğunluğu vəziyyəti  və görülmüş tədbirlər</td></tr>
<tr><td>Pozuntular aşkar olunmamış<br>hesabatlar</td><td>Pozuntular aşkar<br>olunmuş<br>hesabatlar</td><td>Pozuntulara görə<br>barələrində sanksiya<br>tətbiq olunmuş siyasi<br>partiyalar</td><td>Pozuntular az əhəmiyyət kəsb<br>etdiyinə  görə barələrində<br>sanksiyalar tətbiq olunmamış<br>siyasi partiyalar</td></tr>
<tr><td></td><td></td><td></td><td></td></tr>
<tr><td colspan="4">Yol verilmiş pozuntulara və<br>həmin pozuntuların aradan qaldırılmasına siyasi partiyaların münasibəti</td></tr>
<tr><td colspan="2">Pozuntuların ehtiyatsızlıqdan baş verməsini bildirib aradan qaldırılması<br>üçün səmərəli əməkdaşlıq edən siyasi partiyalar</td><td colspan="2">Yol verilmiş pozuntularla əlaqədar xəbərdarlıq edilməsinə<br>baxmayaraq qüsurların aradan qaldırılması üçün<br>əməkdaşlıqdan yayınan və ya imtina edən siyasi partiyalar</td></tr>
<tr><td colspan="2"></td><td colspan="2"></td></tr>
</table>

## *Hesabatlar nəzərdən keçirilərkən bəndlər üzrə müəyyən olunmuş vəziyyət*

**Siyasi partiyalar və mühasibat strukturları**
**Maliyyə vəziyyəti haqqında hesabat**
*(1 №-li formaya uyğun)*

| *Mümkün pozuntular* | *Nəzərdən keçirilmiş bəndlər* | *Pozuntular aşkar olunmamış bəndlər* | *Hesabatın bəndləri üzrə aşkar olunmuş pozuntular* | |
|---|---|---|---|---|
| | | | *Məlumatlar təqdim edilməmişdir* | *Məlumatlar yanlış təqdim edilmişdir* |
| **Aktivlər** | | | | |
| **Uzunmüddətli aktivlər** | | | | |
| Qeyri-maddi aktivlər | | | | |
| Torpaq, tikili və avadanlıq | | | | |
| Daşınmaz əmlaka investisiyalar | | | | |
| Uzunmüddətli debitor borcları | | | | |
| Sair uzunmüddətli aktivlər | | | | |
| **Cəmi uzunmüddətli aktivlər** | | | | |
| **Qısamüddətli aktivlər** | | | | |
| Ehtiyatlar | | | | |
| Qısamüddətli debitor borcları | | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | | | | |
| Sair qısamüddətli aktivlər | | | | |
| **Cəmi qısamüddətli aktivlər** | | | | |
| **Cəmi aktivlər** | | | | |
| **Xalis aktivlər (kapital) və öhdəliklər** | | | | |
| **Xalis aktivlər (kapital)** | | | | |
| Ehtiyat fondu | | | | |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | | | | |
| **Cəmi xalis aktivlər (kapital)** | | | | |

| | | | | |
|---|---|---|---|---|
| **Uzunmüddətli öhdəliklər** | | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| Uzunmüddətli kreditor borcları | | | | |
| Sair uzunmüddətli öhdəliklər | | | | |
| **Cəmi uzunmüddətli öhdəliklər** | | | | |
| **Qısamüddətli öhdəliklər** | | | | |
| Qısamüddətli faiz xərcləri yaradan öhdəliklər | | | | |
| Qısamüddətli qiymətləndirilmiş öhdəliklər | | | | |
| Vergi və sair məcburi ödənişlər üzrə öhdəliklər | | | | |
| Qısamüddətli kreditor borcları | | | | |
| Sair qısamüddətli öhdəliklər | | | | |
| **Cəmi qısamüddətli öhdəliklər** | | | | |
| **Cəmi öhdəliklər** | | | | |
| **Cəmi xalis aktivlər (kapital) və öhdəliklər** | | | | |

## *Hesabatlar nəzərdən keçirilərkən bəndlər üzrə müəyyən olunmuş vəziyyət*

| ***Maliyyə fəaliyyətinin nəticələri haqqında hesabat*** *(2 N-li formaya uyğun)* | | | | |
|---|---|---|---|---|
| ***Mümkün pozuntular*** | ***Nəzərdən keçirilmiş bəndlər*** | ***Pozuntular aşkar olunmamış bəndlər*** | ***Hesabatın bəndləri üzrə aşkar olunmuş pozuntular*** | |
| | | | ***Məlumatlar təqdim edilməmişdir*** | ***Məlumatlar yanlış təqdim edilmişdir*** |
| **Gəlirlər,** o cümlədən: | | | | |
| üzvlük haqları | | | | |
| əmlakdan götürülən gəlir | | | | |
| tədbirlərdən, mətbu nəşrlərin və məqalələrin yayılmasından, gəlirlə bağlı olan buna bənzər başqa fəaliyyətdən götürülən gəlir | | | | |
| ianələr şəklində gəlir | | | | |
| seçki kampaniyası üçün xərclərin ödənilməsi şəklində daxil olan vəsait | | | | |
| aşağı təşkilatların ödəncləri | | | | |
| dövlət büdcəsindən ayrılan vəsait | | | | |
| borcun və ya kreditin alınmasından əldə edilmiş məbləğ | | | | |
| hüquq varisliyi və ya vərəsəlik yolu ilə əldə edilmiş əmlak | | | | |
| digər gəlirlər | | | | |
| Xərclər, o cümlədən: | | | | |
| cari işlərə sərf olunan vəsait | | | | |
| siyasi partiyanın saxlanmasına və informasiya təminatına çəkilən xərclər | | | | |
| ictimaiyyətlə əlaqələrə və seçkilərin keçirilməsinə çəkilən xərclər | | | | |

| | | | | |
|---|---|---|---|---|
| aşağı təşkilatlara ödənclər | | | | |
| kreditlər üzrə faizlər | | | | |
| fərdi xərclər | | | | |
| sair xərclər | | | | |
| ümumi mənfəət (zərər) | | | | |

## *Hesabatlar nəzərdən keçirilərkən müəyyən olunmuş vəziyyət*

| **Əhəmiyyətli uçot siyasəti və izahlı qeydlərin məzmunu** | | | | |
|---|---|---|---|---|
| ***Mümkün pozuntular*** | ***Nəzərdən keçirilmiş məlumatlar*** | ***Pozuntular aşkar olunmamış məlumatlar*** | ***Aşkar olunmuş pozuntular*** | |
| | | | ***Məlumatlar təqdim edilməmişdir*** | ***Məlumatlar yanlış təqdim edilmişdir*** |
| siyasi partiyaların maliyyə hesabatlarının tərtibi ilə bağlı əhəmiyyətli uçot siyasətlərinin açıqlanmasını təmin edən məlumatlar; | | | | |
| maliyyə vəziyyəti haqqında hesabatda göstərilən bütün maddələrin açıqlanmasını təmin edən məlumatlar; | | | | |
| maliyyə fəaliyyətinin nəticələri haqqında hesabatda göstərilən bütün maddələrin (o cümlədən, üzvlük haqqı ödəyən siyasi partiya üzvlərinin sayı və ianəni vermiş şəxslər barədə məlumatlar) açıqlanmasını təmin edən məlumatlar; | | | | |
| ianə vermiş şəxsin soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və ianənin məbləği, əhəmiyyətli uçot siyasəti və izahlı qeydlərdə əks etdirilməlidir. | | | | |

**MSK Katibliyinin Maliyyə**
**şöbəsinin siyasi partiyaların**
**hesabatları üzrə iş sektorunun müdiri:**

______________________________
*(imza)*

“___”__________20____ il